# Ordu quruculuğu uğurla həyata keçirilir

❐ ***Azərbaycan son 15 ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə böyük inkişaf yolu keçib. Ötən müddət ərzində ölkə başçısı tərəfindən həyata keçirilən ardıcıl və düşünülmüş siyasət nəticəsində respublikamızın maliyyə imkanları artıb, dövlətimiz transmilli layihələrin təşəbbüskarı və əsas iştirakçısı kimi çıxış edib, müasir tələblərə cavab verən infrastruktur yaradılıb, ən yeni texnologiyalara əsaslanan müəssisələr işə salınıb, Azərbaycanın beynəlxalq aləmdəki mövqeyi getdikcə möhkəmlənib.***





Respublikamızda digər sahələrlə yanaşı, Silahlı Qüvvələrin maddi-texniki bazasının gücləndirilməsi istiqamətində də geniş-miqyaslı tədbirlər həyata keçirilib. Məhz görülmüş işlər nəticəsində hazırda beynəlxalq reytinqlərə görə, Azərbaycanın Silahlı Qüvvələri dünyanın ən güclü 50 ordusu sırasında yer tutur.

Ordumuz öz gücünü və döyüş qabiliyyətini 2016-cı ilin aprelində həm düşmənə, həm də dünyaya nümayiş etdirdi. Azərbaycan tarixinə şanlı səhifələrdən biri kimi daxil olan Aprel döyüşlərində qüdrətli ordumuz Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının ərazilərinin bir qismini işğalçılardan təmizləyərək böyük bir əraziyə nəzarəti ələ aldı. Bu döyüşlərin ən mühüm yekunu Lələtəpə yüksəkliyinin azad olunması və bununla da Cocuq Mərcanlı kəndinin təhlükəsizliyinin təmin edilməsi oldu. 2018-ci ilin mayında isə Naxçıvan Muxtar Respublikası Şərur rayonunun Günnüt kəndi düşməndən azad edildi, dövlət sərhədi boyunca əlverişli yüksəkliklər ələ keçirildi. Həmin döyüşlərdə Müdafiə Sənayesi Nazirliyinin müəssisələrində yaradılan və istehsal olunan müdafiə təyinatlı məmulatlardan geniş istifadə olundu. Düşmənin canlı qüvvəsinin və döyüş texnikalarının yerinin müəyyənləşdirilərək, məhv edilməsində yeni növ milli müdafiə təyinatlı məhsullar mühüm rol oynadı.

Burada bir məqam da xüsusi qeyd edilməlidir. Bu da ordu quruculuğu istiqamətində həyata keçirilən tədbirlər sırasında əsgər və zabitlərin xidmət şəraitinin müasirləşdirilməsi, onlar üçün hər cür infrastrukturu olan hərbi şəhərciklərin tikilməsi ilə bağlıdır. Belə ki, son 15 ildə Azərbaycanda hərbi qulluqçuların sosial məsələlərinin həlli istiqamətində mühüm tədbirlər reallaşdırılıb, onların əməkhaqlarının davamlı olaraq artırılması, verilən imtiyaz və güzəştlərin miqyasının genişləndirilməsi, hərbçilərin ailə üzvlərinin sosial müdafiəsinin gücləndirilməsi, mənzil-məişət problemlərinin həlli diqqət mərkəzində saxlanılıb. Bir sözlə, həyatını Vətəni müdafiə etmək kimi şərəfli vəzifəyə həsr edən hərbi qulluqçular hərtərəfli dövlət qayğısı ilə əhatə olunublar.

Şübhəsiz ki, bütün bunlar Ordumuzun daha da güclənməsinə, şəxsi heyətin mənəvi-psixoloji hazırlığının yüksəldilməsinə müsbət təsir göstərir, eyni zamanda, əsgər və zabitləri Ali Baş Komandanın əmr və göstərişlərini böyük məsuliyyətlə yerinə yetirməyə sövq edir.

Dekabrın 17-də Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin iştirak etdiyi Sabunçu rayonunda hərbçilərə yeni mənzillərin verilməsi mərasimində bu barədə ətraflı danışılıb. Bildirilib ki, ölkəmizin iqtisadi potensialı gücləndikcə Azərbaycanın hərbi qüdrətinin artırılması istiqamətində ardıcıl və mühüm işlər görülür, ordu quruculuğu sahəsində tədbirlər uğurla davam etdirilir. Silahlı Qüvvələrdə 1992-ci ildən etibarən 20 il və daha çox qüsursuz xidmət etmiş 1279 hərbi qulluqçuya Azərbaycan Prezidentinin fərmanı ilə indiyədək dövlət tərəfindən Bakıda 629, Gəncədə 632, Naxçıvanda 18 mənzil verilib.

Prezident, Ali Baş Komandan İlham Əliyev mərasimdə çıxış edərək hərbçilərin sosial şəraitinin davamlı olaraq yaxşılaşdırılmasının diqqət mərkəzində saxlanıldığını vurğulayıb: “Son illərdə bir çox hərbi şəhərciklərimizdə əsaslı təmir-bərpa işləri aparılmışdır. Bir çox şəhərciklər yenidən tikilmişdir. Hərbçilərin, əsgər və zabitlərimizin xidmət şəraiti də böyük dərəcədə yaxşılaşıb. Bu gün bizim hərbi şəhərciklərimizin, hərbi hissələrimizin, hərbi bazalarımızın təxminən 75-80 faizi standartlara tam cavab verir. Növbəti illərdə qalan, hələ də təmirə ehtiyacı olan hərbi hissələrin təmiri nəzərdə tutulur. Dövlət bu məqsədlər üçün vəsait ayırır və bundan sonra da ayıracaqdır”.

Dövlətimizin başçısı nitqində respublikamızda ordu quruculuğu prosesinin uğurla getdiyini, Azərbaycanın dünyada güclü orduya malik olan ölkələr sırasında olduğunu, ordumuzun maddi-texniki bazasının möhkəmləndiyini, ən müasir texnika, silahlar alındığını xatırladıb. Eyni zamanda, qeyd edib ki, bu il keçirilmiş iki hərbi parad Azərbaycanın hərbi gücünü bütün dünyaya göstərib.

Ali Baş Komandan İlham Əliyev daha sonra deyib: “Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üçün bütün başqa amillərlə yanaşı, ən birinci amil bizim hərbi gücümüzdür, qüdrətimizdir. Biz gücümüzü artırırıq və artıracağıq. Onu da bildirməliyəm ki, bu il bir çox önəmli kontraktlar imzalanmışdır. Bu kontraktların icrası nəticəsində ölkəmizə ən müasir silahlar və texnika gətiriləcəkdir. Bu gün mövcud olan texnika və silahlar imkan verir ki, biz işğalçıların istənilən hərbi hədəfini yüksək dəqiqlik və böyük dağıdıcı qüvvə ilə darmadağın edə bilək. Əlbəttə, hər bir ölkənin, o cümlədən müharibə şəraitində yaşayan ölkələrin gücünü, ilk növbədə, onun hərbi qüdrəti müəyyən edir”. Bütün bunlar isə deməyə əsas verir ki, Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda ordu quruculuğu uğurla həyata keçirilir. Dövlətimizin hərbi qüdrəti durmadan artır və Silahlı Qüvvələrimiz regionda peşəkarlıq, təchizat və döyüş qabiliyyəti baxımından ən güclü orduya çevrilir.

***Vaqif BAYRAMOV,***
***“Xalq qəzeti”***